# Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı

## 1. Giriş

Azərbaycan Respublikasının demokratik inkişaf yoluna qədəm qoyaraq hüquqi dövlət quruculuğu prosesinin əsas şərti kimi qəbul edilən azad bazar iqtisadiyyatı modelini seçməsi cəmiyyətdə xüsusi mülkiyyət amilinin rolunu daha da gücləndirmiş və mülkiyyət münasibətlərinin tənzimlənməsi sahəsində mühüm qərarların qəbulu ilə səciyyəvi olmuşdur.

Dövlət əmlakının özəlləşdirilməsi və torpaq islahatı kimi mühüm əhəmiyyətə malik irimiqyaslı tədbirlər uğurla həyata keçirilmiş, çoxsaylı dövlət əmlakı, o cümlədən mənzil fondu və torpaq sahələri də daxil olmaqla, yüz minlərlə əmlak xüsusi mülkiyyətə verilmiş və beləliklə də, ölkədə mülkiyyət hüququ münasibətlərində iştirak edən subyektlərin sayı artmışdır. Bunun nəticəsində torpaq sahələri də daxil olmaqla, daşınmaz əmlak üzərində müxtəlif mülkiyyət növləri yaranmış, onların hüquqi statusu müəyyən edilmiş və mülkiyyət hüquqlarının qeydiyyatı sistemi formalaşmışdır.

İqtisadiyyatda müşahidə olunan dinamik inkişaf daşınmaz əmlakın, həmçinin torpaqların idarə edilməsinin hüquqi, iqtisadi və təşkilati mexanizmlərinin təkmilləşdirilməsini və torpaq münasibətlərinin davamlı olaraq düzgün tənzimlənməsini tələb edir.

Ölkədəki ictimai-siyasi sabitlik və Azərbaycanın bir sıra qlobal layihələrdə iştirakı, eləcə də ayrı-ayrı sahələrə sərmayə axını, özəl sektorun inkişafı üçün yaradılmış münbit şərait sosial-iqtisadi inkişaf prosesində daşınmaz əmlakın rolunu daha da gücləndirmişdir. Belə ki, inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da daşınmaz əmlak müxtəlif iqtisadi layihələrə sərmayə yatırımı üçün maliyyə qurumları ilə sahibkarlar arasında qarşılıqlı inam və etimadı təmin edən başlıca vasitə kimi çıxış etməyə başlamışdır.

"Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 5 fevral tarixli 453 nömrəli Fərmanına uyğun olaraq mülkiyyət hüquqlarının tənzimlənməsində vahid idarəçiliyin təmin edilməsi ölkədə daşınmaz əmlakın kadastrının və torpaq ehtiyatlarından istifadənin tənzimlənməsinin dövlət idarəetməsinin təkmilləşdirilməsinə və səmərəliliyinin artırılmasına, habelə daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyat prosesinin təkmilləşdirilməsinə zəmin yaratmışdır.

Daşınmaz əmlak kimi torpaq ölkənin qiymətli sərvətlərindən olmaqla, ərzaq təminatında əsas istehsal vasitəsi, digər əmlaklar üçün isə məkan rolunu oynayır. Torpaqların idarə edilməsi, o cümlədən ondan səmərəli şəkildə istifadə olunması və onun mühafizəsi məsələsi dövlətin torpaqla bağlı siyasətinin əsas tərkib hissələrindəndir. Son illər antropogen təsirin daha da artması, qlobal iqlim dəyişikliyi və ərzaq təhlükəsizliyi kimi problemlər torpağa dövlət qayğısının daha da artırılmasını zəruri etmişdir.

## 2. Mövcud vəziyyət

Azərbaycan Respublikasının davamlı sosial-iqtisadi inkişafı şəraitində daşınmaz əmlak üzərində mülkiyyət hüquqları sahibkarlıq subyektləri üçün geniş imkanlar yaratmaqdadır. Bu amil ölkədə, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına təkan verir, bu sahədə investisiya fəallığının gücləndirilməsini, daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının etibarlı qaydada qorunmasını, qeydiyyat prosedurlarının təkmilləşdirilməsini, müasir bazar infrastrukturunun formalaşdırılmasını və şəffaflığın təmin olunmasını şərtləndirir.

Son illərdə mülkiyyət münasibətlərinin yeni iqtisadi prinsiplərə uyğun tənzimlənməsi məqsədi ilə qanunvericilik bazası təkmilləşdirilmiş, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı, daşınmaz əmlakın kadastrı, texniki inventarlaşdırılması və qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi sahəsində müvafiq addımlar atılmışdır.

Torpaq-hüquq və torpaq-istehsal münasibətlərində köklü dəyişikliklərə səbəb olan "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi və onun icrasını təmin edən normativ hüquqi aktlarda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində 872,4 min ailə (3,4 milyon subyekt) torpaq mülkiyyətçisinə çevrilmiş və iş yerləri ilə təmin olunmuşdur.

Ölkənin iqtisadi siyasətində prioritetliyi xüsusi əhəmiyyət kəsb edən aqrar sahədə aparılan islahatlar, o cümlədən torpaq islahatı nəticəsində ölkədə bazar iqtisadiyyatı prinsiplərinə uyğun özəl təsərrüfatçılıq sistemi formalaşdırılmış, kənd təsərrüfatında böhranın qarşısı alınmış və ayrı-ayrı sahələr üzrə məhsul istehsalının artımına nail olunmuşdur.

Aqrar sahənin inkişaf strategiyası yaxın gələcəkdə Azərbaycan Respublikasının dünya bazarına kənd təsərrüfatı məhsullarının ixracatçısı kimi çıxmasına imkan yaradacaqdır. Bu sahədə görülmüş işlərə baxmayaraq, məhsul istehsalının həcmi və məhsuldarlığın səviyyəsi inkişaf etmiş ölkələrin müvafiq göstəricilərindən hələ də geri qalmaqdadır. Bunun başlıca səbəblərindən biri ölkənin kənd təsərrüfatı təyinatlı torpaqlarından səmərəli istifadə olunmaması və onların mühafizəsinin təmin edilməməsi ilə bağlıdır. Dünya əhalisinin artım tempi, əkinəyararlı torpaq sahələrinin məhdudluğu, suvarma suyunun qıtlığı, təbiətdə ekoloji tarazlığın pozulması, baş verən iqlim dəyişiklikləri başəriyyətdə ərzaq problemi məsələsini ön plana çəkmişdir ki, bu da torpaq münasibətlərinin düzgün şəkildə tənzimlənməsini, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizminin mütəmadi olaraq təkmilləşdirilməsini tələb edir.

Torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizminin təkmilləşdirilməsi üçün ilk növbədə ölkədə torpaqların məqsədli təyinatında, kəmiyyət və keyfiyyət göstəricilərində baş vermiş dəyişikliklərin və uyğunsuzluqların aradan qaldırılması ilə torpaqların elektron kadastr uçotu aparılmalı, dürüstləşdirilmiş kadastr məlumatları əsasında torpaqların elektron kadastr uçotu informasiya sistemi yaradılmalı və həmin məlumatların dəyişmə dinamikası təhlil edilməlidir. Nəticədə torpaq üzərində mülkiyyət hüququnun həyata keçirilməsində və torpaq ehtiyatlarının idarə edilməsinin iqtisadi təminatına dair tədbirlərin (iqtisadi stimullaşdırma və s.) yerinə yetirilməsində mövcud olan problemlər aradan qaldırılmalıdır. Bununla belə, torpaqların münbitliyinin mühafizəsi, korlanmış torpaqların bərpasına yönəldilmiş yerquruluşu, meliorativ, aqrotexniki və digər yaxşılaşdırma işlərinin vəhdətini təşkil edən torpaqların rekultivasiyası, torpaqların eroziyadan, səhralaşmadan, sellərdən və digər mənfi təsirlərdən qorunması üçün kompleks tədbirlər sistemi hazırlanmalı və həyata keçirilməlidir.

Torpaq fondunun kateqoriyalar üzrə məqsədli təyinatının, habelə torpaqlardan istifadənin hüquqi rejiminin dəyişməsi zamanı meydana çıxan çatışmazlıqlar sənaye, nəqliyyat, rabitə, müdafiə, energetika və digər qeyri-kənd təsərrüfatı məqsədləri üçün torpaq sahələrinin ayrılması mexanizminin təkmilləşdirilməsini zəruri edir. Bu kimi çatışmazlıqların aradan qaldırılması üçün ölkənin vahid torpaq fondundan istifadəyə və onun mühafizəsinə dövlət nəzarəti gücləndirilməli və torpaqların monitorinqinin aparılması işləri intensivləşdirilməlidir.

Torpaq islahatı ilə bağlı xüsusi mülkiyyətə verilmiş pay torpaq sahələrinə bitişik, onların mülkiyyətçilərinin istifadəsində olan və ayrıca kadastr obyekti kimi formalaşdırılması mümkün olmayan (bölünə bilməyən) torpaq sahələrindən səmərəli istifadəyə dair kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsi, habelə həmin torpaqların hüquqi müqəddəratı məsələsinə baxılmasına zərurət yaranmışdır.

Yeni torpaq-hüquq və torpaq-istehsal münasibətləri zəminində formalaşan və dövlət siyasətinin əsas prinsiplərinə uyğun olaraq sistemli qaydada təşkil edilən torpaq bazarı tələb və təklifə əsasən, torpaq sahələrinin onu daha səmərəli şəkildə idarə və istifadə edən subyektlər tərəfindən əldə edilməsinə şərait yaratmışdır.

Torpaq bazarının təşkili sahəsində dövlətin vəzifələrinə müvafiq olaraq torpaq hərraclarının və müsabiqələrinin təşkili qaydalarına dair kifayət qədər normativ hüquqi aktlar işlənilmiş və təsdiq edilmişdir.

Bununla yanaşı, torpaq münasibətlərinin tənzimlənməsi, torpaqlardan səmərəli istifadə olunması və mühafizəsi, mülkiyyət hüquqlarının qeydiyyatı sahələrində həlli vacib olan bəzi məsələlər mövcuddur. Belə ki, ölkədə iqtisadi inkişafın hazırkı mərhələsinə müvafiq olaraq, torpaqların dövlət idarəetməsinin təkmilləşdirilməsi məqsədi ilə torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və həmin sistemə inteqrasiya olunacaq məlumatların müəyyən edilməsi üçün torpaqların elektron uçotunun və dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işlərinin aparılması, daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı prosesinin təkmilləşdirilməsi, özbaşına tikililərin uçotunun aparılması və bu problemin həlli ilə bağlı müvafiq təkliflərin hazırlanması, daşınmaz əmlakın elektron idarəetmə sisteminin yaradılması və bu sistemin elektron hökumətin əsaslarından birinə çevrilməsi, daşınmaz əmlak bazarının, o cümlədən torpaq bazarının sistemli qaydada təşkil edilməsi, ünvan reyestrinin tərtibi və aparılması, daşınmaz əmlakın qiymətləndirilməsi və ona nəzarət mexanizminin təkmilləşdirilməsi, əmlak bazarının təhlil edilməsi, vətəndaşlar arasında bu sahələrlə bağlı hüquqi maarifləndirmə tədbirlərinin davam etdirilməsi kimi qarşıda mühüm vəzifələr durur.

Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı (bundan sonra - Dövlət Proqramı) daşınmaz əmlakın kadastrı sisteminin inkişaf etdirilməsi, torpaq ehtiyatlarının idarə olunmasının tənzimlənməsi və torpaq münasibətlərinin inkişafı sahəsində dövlət siyasətinin və dəstəyinin əsas istiqamətlərini müəyyən edir.

## 3. Dövlət Proqramının məqsəd və vəzifələri

3.1. Dövlət Proqramının əsas məqsədi ölkədə daşınmaz əmlakın kadastrı sisteminin inkişafına, daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı prosesinin təkmilləşdirilməsinə, torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq ehtiyatlarının dövlət idarəetməsinin təkmilləşdirilməsinə, torpaqların məqsədli təyinatında, kəmiyyət və keyfiyyət göstəricilərində baş vermiş dəyişikliklərin tədqiqi ilə bağlı torpaq monitorinqlərinin aparılmasına, torpaq sahələrində iri fermer təsərrüfatlarının yaradılması məqsədi ilə yerquruluşu layihə və sxemlərinin hazırlanmasına, torpaqlardan səmərəli istifadə olunmasına və torpaq ehtiyatlarının mühafizəsinə, münbitliyinin bərpası və artırılmasına, korlanmış, xüsusilə neft tullantıları ilə çirklənmiş torpaqların rekultivasiyasına, torpaqların eroziyadan, səhralaşmadan, ekzogen geoloji proseslərdən və digər mənfi təsirlərdən qorunmasına, torpaq bazarının inkişafına, mülkiyyət hüquqlarının dövlət qeydiyyatı üçün kompleks tədbirlər sisteminin hazırlanmasına nail olmaqdır.

3.2. Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

3.2.1. daşınmaz əmlakın vahid dövlət kadastrı, daşınmaz əmlakın kadastrı, dövlət torpaq kadastrı, yerquruluşu, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı, daşınmaz əmlakın qiymətləndirilməsi, ünvan reyestri, torpaq bazarının sistemli təşkili, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti, torpaq münasibətlərinin tənzimlənməsi sahələrində fəaliyyətin səmərəliliyinin artırılması və bu məqsədlə mövcud qanunvericiliyin təkmilləşdirilməsi;

3.2.2. daşınmaz əmlakın kadastrı sisteminin inkişafına, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair dünya təcrübəsinin, habelə bu sahədə müasir standartlara cavab verən texnika və texnologiyaların tətbiqinin genişləndirilməsi;

3.2.3. daşınmaz əmlakın vahid dövlət kadastrının formalaşdırılması;

3.2.4. daşınmaz əmlakın vahid dövlət kadastrı, daşınmaz əmlakın kadastrı, dövlət torpaq kadastrı, xüsusi (sahəvi) təyinatlı geodeziya, yerquruluşu və ünvan reyestri ilə məşğul olan orqanların layihə-tədqiqat qurumlarının iş şəraitinin və maddi-texniki təchizatının yaxşılaşdırılması;

3.2.5. daşınmaz əmlakın vahid dövlət kadastrı, daşınmaz əmlakın kadastrı, dövlət torpaq kadastrı, xüsusi (sahəvi) təyinatlı geodeziya, yerquruluşu və ünvan reyestri üzrə göstərilən xidmətlərin avtomatlaşdırılması səviyyəsinin artırılması ilə vətəndaş-məmur münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi;

3.2.6. mütərəqqi beynəlxalq təcrübə tətbiq edilməklə, texniki kadastr sənədlərinin hazırlanması işi ilə əlaqədar özəl mərzçəkənlər institutunun formalaşdırılması;

3.2.7. daşınmaz əmlakın idarə olunması sahəsində dünya təcrübəsinin öyrənilməsi və elmi-texniki nailiyyətlərin tətbiq edilməsi, innovasiya proqramlarının və yeni texnologiyaların tətbiqi yolu ilə daşınmaz əmlak bazarı infrastrukturunun təkmilləşdirilməsi;

3.2.8. daşınmaz əmlak bazarı iştirakçıları ilə səmərəli əməkdaşlıq əlaqələrinin qurulması, ölkədə rieltor institutunun inkişafına dəstək verilməsi;

3.2.9. daşınmaz əmlakın idarə olunması sahəsində kadr hazırlığı prosesinin inkişafı üçün ölkənin ali təhsil müəssisələrində bu sahə üzrə təhsil sisteminin müasir tələblərə uyğunlaşdırılması.

## 4. Dövlət Proqramının həyata keçirilməsinin əsas istiqamətləri

4.1. Dövlət Proqramında göstərilən məqsədlərə nail olmaq üçün qanunvericilik bazasının təkmilləşdirilməsi və hüquqi təminat, daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılması, texniki və funksional modernləşdirilmə, kadr siyasəti istiqamətləri üzrə tədbirlər həyata keçirilməlidir.

4.2. Qanunvericilik bazasının təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə daşınmaz əmlakın vahid dövlət kadastrı, daşınmaz əmlakın kadastrı, dövlət torpaq kadastrı, yerquruluşu, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı, daşınmaz əmlakın qiymətləndirilməsi, ünvan reyestri, torpaq bazarının sistemli təşkili, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti, torpaq münasibətlərinin tənzimlənməsi sahələri üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

4.3. Daşınmaz əmlakın kadastrı sisteminin inkişafı aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

4.3.1. daşınmaz əmlakın kütləvi inventarlaşdırılması və qiymətləndirilməsi;

4.3.2. daşınmaz əmlakın məkan məlumatlarının infrastrukturunun formalaşdırılması.

4.4. Torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılması aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

4.4.1. torpaqdan məqsədli təyinatına və hüquqi rejiminə uyğun istifadənin təmin edilməsi üçün torpaqdan istifadəyə və onun mühafizəsinə dövlət nəzarəti mexanizminin təkmilləşdirilməsi;

4.4.2. torpaqların təyinatında, kəmiyyət və keyfiyyət göstəricilərində baş vermiş dəyişikliklərin tədqiqi məqsədi ilə aparılmış monitorinqlərin nəticələrinin təhlili və müvafiq təkliflərin hazırlanması.

4.5. Texniki və funksional modernləşdirilmə aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

4.5.1. torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizminin təkmilləşdirilməsi və torpaq münasibətlərinin inkişafına dair təkliflərin hazırlanması və həyata keçirilməsi;

4.5.2. torpaq bazarının sistemli qaydada təşkil edilməsi, torpaqların dövriyyəsi proseslərinin intensivləşdirilməsi və bu fəaliyyətin mütərəqqi beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

4.5.3. texniki kadastr sənədlərinin hazırlanmasına özəl sektorun cəlb edilməsi;

4.5.4. daşınmaz əmlakın vahid dövlət kadastrı, daşınmaz əmlakın kadastrı və dövlət torpaq kadastrı üzrə göstərilən xidmətlərin avtomatlaşdırılması səviyyəsinin artırılması;

4.5.5. ölkə üzrə daşınmaz əmlakın elektron kadastr məlumat bazasının formalaşdırılması;

4.5.6. dövlət əmlakının registrində dövlət mülkiyyətində olan daşınmaz əmlaklar barədə məlumatların daşınmaz əmlakın vahid dövlət kadastrına və daşınmaz əmlakın dövlət reyestrinə daxil edilməsi;

4.5.7. daşınmaz əmlakın kadastrından və dövlət torpaq kadastrından məlumatların elektron xidmətlər vasitəsilə əldə edilməsinin təmin olunması.

4.6. Kadr siyasəti aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

4.6.1. fəaliyyət sahələri üzrə yüksək ixtisaslı kadrların cəlb olunmasını təmin edən tədbirlərin həyata keçirilməsi;

4.6.2. daşınmaz əmlakın idarə olunması sahəsində çalışan rəhbər işçilər və mütəxəssislər üçün, beynəlxalq ekspertlərin iştirakı ilə, ixtisasartırma, stajkeçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsilin təşkili.

## 5. Dövlət Proqramının maliyyə mənbələri

5.0. Dövlət Proqramının maliyyələşdirilməsi aşağıda göstərilən mənbələr hesabına təmin edilir:

5.0.1. dövlət büdcəsi;

5.0.2. kreditlər və qrantlar;

5.0.3. qanunvericiliklə qadağan edilməyən digər mənbələr.

## 6. Gözlənilən nəticələr

6.0. Dövlət Proqramının həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

6.0.1. daşınmaz əmlak idarəçiliyi sisteminin mövcud normativ hüquqi bazasının təkmilləşdirilməsi;

6.0.2. Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı və daşınmaz əmlakın vahid dövlət kadastrının formalaşdırılması;

6.0.3. torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılması;

6.0.4. torpaqların münbitliyinin mühafizəsi ilə əlaqədar kompleks tədbirlərin həyata keçirilməsi ilə bağlı zəruri layihələrin işlənilməsi üçün məlumat bazasının yaradılması;

6.0.5. ərazi vahidləri üzrə ərazi planlaşdırılması və torpaqların zonalaşdırılması işlərinin aparılması üçün zəngin informasiyaya malik sistemin fəaliyyət göstərməsi;

6.0.6. dəqiqləşdirilmiş dövlət torpaq kadastrı məlumatlarından istifadə edilməklə, kənd təsərrüfatı təyinatlı torpaqların məhsuldarlığının artırılması ilə bağlı stimullaşdırma və iqtisadi müdafiə tədbirlərinin həyata keçirilməsi işinin (subsidiyaların və s. verilməsi) səmərəliliyinin yüksəldilməsi;

6.0.7. daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı prosesinin təkmilləşdirilməsi;

6.0.8. daşınmaz əmlak münasibətlərinin davamlı inkişafına dair daha çevik qərarların qəbulu üçün əlverişli şəraitin yaradılması;

6.0.9. rəqəmsal kadastr xəritələrinin köməyi ilə ünvan axtarışı ilə bağlı naviqasiya sisteminin tətbiqində yeni imkanların yaradılması;

6.0.10. əmlak idarəçiliyində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi yolu ilə torpaq ehtiyatlarının dövlət idarəetməsinin təkmilləşdirilməsi;

6.0.11. kadrların peşəkarlıq səviyyəsinin artırılması.

## 7. Dövlət Proqramının həyata keçirilməsi üzrə

### TƏDBİRLƏR PLANI

| Sıra N-si | Tədbirin adı | İcra müddəti (illər üzrə) | İcraçı qurumlar |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **7.1. Qanunvericilik bazasının təkmilləşdirilməsi və hüquqi təminat** | | | |
| 7.1.1. | Torpaq ehtiyatlarından istifadənin dövlət idarəetməsinə, torpaq bazarının təşkilinə, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınmasına, daşınmaz əmlakın vahid dövlət kadastrının, daşınmaz əmlakın kadastrının, dövlət torpaq kadastrının aparılmasına, dövlət mülkiyyətində olan torpaqların özəlləşdirilməsinə və icarəyə verilməsinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması barədə təkliflərin hazırlanması | 2016-2017 | Nazirlər Kabineti, Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi |
| 7.1.2. | "Yerquruluşu, daşınmaz əmlakın kadastrı və torpaqların monitorinqi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinin hazırlanması | 2016 | Nazirlər Kabineti, Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi |
| 7.1.3. | Torpaqların qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsi və kadastr qiymətləndirilməsinin həyata keçirilməsi barədə təkliflərin hazırlanması | 2016 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi |
| 7.1.4. | Bələdiyyə mülkiyyətində olan torpaq sahələri barədə bələdiyyələrin sərəncam verməsi məqsədi ilə həmin torpaqlarla bağlı daşınmaz əmlakın dövlət reyestrindən və daşınmaz əmlakın kadastrı xəritəsindən çıxarışların verilməsi üçün mövcud normativ hüquqi aktların təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması | 2016 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi |
| 7.1.5. | Daşınmaz əmlakın kadastrı, dövlət torpaq kadastrı, yerquruluşu sahələri üzrə göstərilən elektron xidmətlərlə yanaşı, yeni elektron xidmətlərin göstərilməsi barədə təkliflərin və onların həyata keçirilməsi üçün inzibati reqlamentlərin hazırlanması | 2016-2018 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| 7.1.6. | Torpaq islahatı ilə xüsusi mülkiyyətə verilmiş pay torpaq sahələrinə bitişik olmaqla normadan artıq istifadə edilən, öz məqsədli və təsərrüfat təyinatına görə ayrı-ayrı müstəqil torpaq sahələrinə bölünə bilməyən (bölünməz) torpaq sahələrinin hüquqi statusu ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması | 2016 | Nazirlər Kabineti, Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 7.1.7. | Torpaq, geobotaniki və aqrokimyəvi tədqiqat işlərinin aparılması qaydalarının və müddətlərinin istehsalatın müasir tələblərinə uyğunlaşdırılması ilə bağlı təkliflərin hazırlanması | 2016-2017 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 7.1.8. | Azərbaycan Respublikasının vahid torpaq fondu, torpaqların kəmiyyəti, keyfiyyəti və onlardan istifadə barədə hesabatların verilməsi qaydalarının təkmilləşdirilməsi | 2016 | Nazirlər Kabineti, Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, yerli icra hakimiyyəti orqanları |
| 7.1.9. | Daşınmaz əmlakın məkan məlumatlarının yaradılması ilə bağlı texniki normativ hüquqi aktların hazırlanması və qəbul edilməsi | 2016-2017 | Əmlak Məsələləri Dövlət Komitəsi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyi |
| **7.2. Torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılması** | | | |
| 7.2.1. | Torpaqların elektron kadastr uçotu məlumatlarının aktuallığının təmin olunması məqsədi ilə torpaqların monitorinqinin aparılmasını, habelə torpaqların kəmiyyəti, keyfiyyəti və onlardan istifadə vəziyyəti barədə məlumatların təqdim edilməsini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | 2016-2020 | Nazirlər Kabineti, Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi |
| 7.2.2. | Torpaqların məqsədli təyinatında, kəmiyyət və keyfiyyət göstəricilərində baş vermiş dəyişikliklərin tədqiqi məqsədi ilə aparılmış monitorinqlərin nəticələrinin təhlili və müvafiq təkliflərin hazırlanması | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 7.2.3. | Məqsədli təyinatına uyğun istifadə edilməyən kənd təsərrüfatı təyinatlı torpaqlarda inventarlaşdırma işlərinin aparılması, təyinatına uyğun istifadənin təmin edilməsi və ya kənd təsərrüfatı təyinatının bərpası mümkün olmayan halları tənzimləyən normativ hüquqi aktın layihəsinin hazırlanması | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 7.2.4. | Torpaqların təbii münbitliyinə görə qiymətləndirilməsinə (torpaqların bonitirovkasına) və torpaqların iqtisadi qiymətləndirilməsinə dair kadastr işlərinin aparılması, münbitliyi azalmış torpaqların münbitliyinin artırılması sahəsində kompleks tədbirlər sisteminin həyata keçirilməsi | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr |
| 7.2.5. | Meliorasiya tədbirlərinə ehtiyacı olan torpaqların müəyyən edilməsi, torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsinə dair tədbirlərin hazırlanması | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr |
| 7.2.6. | Torpaqların münbitliyinin mühafizəsi məqsədi ilə münbit qatı korlanmış (neftlə, radioaktiv və kimyəvi tullantılarla çirklənmiş, deqradasiyaya uğramış) torpaqların rekultivasiya olunması, torpaqların eroziyaya uğramasına qarşı qoruyucu meşə zolaqlarının salınmasına dair yerquruluşu layihələrinin və onların aidiyyəti orqanlar tərəfindən həyata keçirilməsi barədə təkliflərin hazırlanması | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, istismarçı təşkilatlar, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr |
| 7.2.7. | Torpaqlardan səmərəli istifadə olunması və onların mühafizəsi məqsədi ilə istismarçı təşkilatların təsərrüfat məqsədləri üçün istifadələrində saxlanılması zəruri hesab olunmayan və rekultivasiya tələb edən boşalmış xüsusi neft-qazçıxarma zonalarının torpaqlarında inventarlaşdırma işləri aparılaraq müvafiq təkliflərin hazırlanması | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Neft Şirkəti, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr |
| 7.2.8. | Dövlət ehtiyat fondu torpaqlarından səmərəli istifadə edilməsi məqsədi ilə zəruri olan ərazilərdə torpaq və geobotaniki tədqiqat işlərinin aparılması | 2016-2019 | Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları |
| 7.2.9. | Dövlət ehtiyat fondu torpaqlarından istifadə qaydalarına dair təkliflərin hazırlanması | 2016 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ədliyyə Nazirliyi |
| **7.3. Texniki və funksional modernləşdirmə** | | | |
| 7.3.1. | Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatının, daşınmaz əmlakın vahid dövlət kadastrının, daşınmaz əmlakın kadastrının aparılması sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi |
| 7.3.2. | Torpaqların elektron kadastr uçotu informasiya sisteminin "Elektron hökumət" portalı vasitəsilə "Elektron kənd təsərrüfatı" informasiya sisteminə və digər təşkilatların informasiya sistemlərinə inteqrasiya olunması, onlar arasında məlumat mübadiləsinin aparılması və uzlaşmanın təmin edilməsi | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| 7.3.3. | Ərazi vahidlərinin və bələdiyyələrin sərhədlərinin müəyyənləşdirilməsinə dair yerquruluşu işlərinin yekunlaşdırılması, rəqəmsal və kağız üzərində xəritələrin hazırlanması və müvafiq məlumatların "Elektron kənd təsərrüfatı" informasiya sisteminə təqdim olunması | 2016-2018 | Əmlak Məsələləri Dövlət Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr |
| 7.3.4. | Dövlət mülkiyyətində olan daşınmaz əmlak barədə məlumatların daşınmaz əmlakın vahid dövlət kadastrına və daşınmaz əmlakın dövlət reyestrinə daxil edilməsi istiqamətlərində tədbirlərin davam etdirilməsi | 2016-2017 | Əmlak Məsələləri Dövlət Komitəsi, mərkəzi və yerli icra hakimiyyəti orqanları |
| 7.3.5. | Daşınmaz əmlakın vahid dövlət kadastrının, daşınmaz əmlakın kadastrının, dövlət torpaq kadastrının və yerquruluşunun aparılması prosedurlarının avtomatlaşdırılması səviyyəsinin artırılması və sistemin müasir informasiya texnologiyaları əsasında inkişaf etdirilməsi yolu ilə bu sistemdən elektron xidmətlər vasitəsilə istifadə imkanlarının genişləndirilməsi | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| 7.3.6. | Azərbaycan Respublikasında daşınmaz əmlakın qeydiyyatı, kadastrı və idarə edilməsi informasiya sisteminin istismara verilməsi və onun "Elektron hökumət" portalı vasitəsilə dövlət orqanlarının informasiya bazaları ilə qarşılıqlı inteqrasiyasının təmin edilməsi | 2016-2017 | Əmlak Məsələləri Dövlət Komitəsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, digər mərkəzi və yerli icra hakimiyyəti orqanları |
| 7.3.7. | Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması, daşınmaz əmlakın vahid dövlət kadastrı, daşınmaz əmlakın kadastrı, dövlət torpaq kadastrı, ünvan reyestri, yerquruluşu, torpaqların idarə olunması və torpaq bazarının təşkili sahələrində funksiyaların aidiyyəti dövlət orqanlarının bu sahələrdəki fəaliyyətləri ilə əlaqələndirilməklə icrasının təmin edilməsi | 2016-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, aidiyyəti dövlət orqanları |
| 7.3.8. | Azərbaycan Respublikasının ərazisi üzrə tələb olunan miqyaslarda ortofotoların yeniləşdirilməsi | 2018-2020 | Əmlak Məsələləri Dövlət Komitəsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| 7.3.9. | Daşınmaz əmlakla bağlı inventarlaşdırma işlərinin aparılmasının və texniki sənədlərin tərtibinin, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı və daşınmaz əmlakın kadastr məqsədləri üçün mərzçəkmə işlərinin özəl hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilməsindən ötrü akkreditasiyanın təşkili və uyğunluq sertifikatları reyestrinin aparılması | 2016-2017 | Nazirlər Kabineti, Əmlak Məsələləri Dövlət Komitəsi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi |
| 7.3.10. | Bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin sərhədlərinin aidiyyəti orqanlarla birlikdə müəyyən edilməsi və torpaqların müvafiq bələdiyyələrə təhvil verilməsi işlərinin tamamlanması, dövlət büdcəsinin vəsaiti hesabına həmin torpaqlar üzərində bələdiyyələrin mülkiyyət hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması | 2016-2018 | Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr |
| **7.4. Kadr siyasəti** | | | |
| 7.4.1. | Azərbaycan Respublikasının ali təhsil müəssisələrində daşınmaz əmlakın dövlət qeydiyyatı, kadastrın formalaşdırılması, yerquruluşu və geodeziya sahələrində mütəxəssislərin hazırlanması işinin davam etdirilməsi, ixtisasartırma, stajkeçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsilin təşkil olunması | 2016-2020 | Təhsil Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |